

# NaturaLight

TƏBİƏTƏ İŞIQ SAÇIR

Kibar

Assan STP Panel

# Haqqımızda

Sendviç panel sektorunda aparıcı təşkilat olan Assan Panel 1990-cı ildə İstanbulun Tuzla rayonunda illik 4 milyon $m^2$ potensiala malik ilk fabriki ilə istehsala başlamışdır.
İllər ərzində öz potensialını inkişaf etdirmək məqsədilə investisiyalar yatırmağa davam edən Assan Panel müvafiq olaraq, 2004-cü ildə Balıkesirdəki illik 3 milyon $m^2$ potensiala malik olan zavoduna, 2012-ci ildə isə İordaniyadakı illik 4,5 milyon $m^2$ potensiala malik olan zavoduna investisiyalar həyata keçirmişdir.
2015-ci ildə isə İstanbulun Tuzla rayonunda yerləşən illik 3,5 milyon $m^2$ potensiala malik zavoduna ikinci xətt investisiyasını müvəffəqiyyətlə həyata keçirərək, illik 18 milyon $m^2$ istehsal potensialına nail olmuşdur. 2021-ci ildə türk əsilli respublikalardakı ilk investisiyasını reallaşdırmış və STP (Sumqayıt Texnologiyalar Parkı) ilə birlikdə Azərbaycandakı zavodu öz işinə başlamışdır.
Öz sektorunda aşkar şəkildə aparıcı mövqedə olan Assan Panel poliuretan dolğulu panellərlə yanaşı, yanğın təhlükəsizliyi təmin edən PIR və daşyunu dolğulu, soyuq kameralar, dam və divarlar üçün nəzərdə tutulan sendviç panel məhsulları, günəş enerjisi sistemlərinin quraşdırılması üçün hazır panellər, müxtəlif layihələr üçün xüsusi olaraq istehsal etdiyi yardımçı vasitələr, polikarbonat işıqlandırmalar, vint çeşidlərindən ibarət birləşdirici elementlər, tikinti üçün sızmaya qarşı və dolğu məhsullarından ibarət olan kimyəvi məhsulları vasitəsilə dayanıqlı və ekoloji binaların inşa edilməsinə töhfə verir.
Şirkət keyfiyyətli, təhlükəsiz, innovativ yanğın əleyhinə dayanıqlı məhsul çeşidləri, ölkə daxilindəki və xaricdəki biznes tərəfdaşları vasitəsilə yüksək keyfiyyətli tətbiq xidməti də göstərir.
Fəaliyyət göstərdiyi sahədə novator məhsulların istehsalı sahəsində lider olan Assan Panel 2015-ci ildə aldığı FM sertifikatı sayəsində Türkiyədə binalarda hündürlük məhdudiyyəti olmadan FM tərəfindən təsdiq olunan və bir çox başqa sertifikatlara sahib olan aparıcı istehsalçıdır.
Dünya bazarında aktiv şəkildə iştirak edən Assan Panel özünün AssanPU, Assan Demir, AssanWool, AssanBoard ticarət nişanları sayəsində 85 ölkəyə ixracat həyata keçirməklə, sənaye tikililəri üçün bütün məhsulları əldə edə biləcəyiniz tərəfdaşınızdır.

## Missiyamız

Müştərilərimizin ehtiyaclarına uyğun, təhlükəsiz, dayanıqlı və yenilikçi məhsulları maksimal fayda ilə təmin edərək, biznes tərəfdaşlarımızla birlikdə sağlam şəkildə inkişaf etmək.

## Baxışımız

Sənaye təyinatlı inşaat bazarında lider, dayanıqlı və yenilikçi məhsullar təmin edən tərəfdaşınız olmaq.

## Dəyərlərimiz

- Dürüstlük və düzgünlük
- Etibarlılıq
- Kollektivçilik ruhu
- İnnovasiya
- Cəmiyyətə və ətraf mühitə qarşı həssaslıq

İstixanalar üçün NaturaLight polikarbonat məhsullarımız UV şüalarının yaratdığı aşınmalara qarşı yüksək müqavimət göstərərək, uzunmüddətli mükəmməl işıqötürmə göstəriciləri sayəsində istilik və struktur baxımından məhsuldarlıq təmin edir.

Bununla yanaşı, texniki heyətimiz enerjiyə maksimum qənaət edilməsinə və binalar üçün ən gözəl layihələndirməyə nail olmaq məqsədilə, təbii və süni işıqlandırma arasında maksimal tarazlıq əldə etməyinizə kömək edə bilər.



Assan STP Panel

# İstixananızı hər mövsüm deyil, bir dəfə quraşdırın, illər boyunca qazanın!

YÜKSƏK İŞIQ KEÇİRİCİLİYİ

ZƏRBƏYƏ YÜKSƏK MÜQAVİMƏT

IR-DƏN QORUMA

MİNİ ŞAM İSİTMƏ DRENAJI

YANĞINA QARŞI MÜQAVİMƏT

UV-DƏN İKİTƏRƏFLİ QORUMA

SİS ƏLEYHİNƏ

UZUNÖMÜRLÜ

TƏTBİQ VƏ LAYİHƏLƏRƏ DƏSTƏK XİDMƏTİ

DİFFUZOR EFFEKTİ



# Novlu polikarbonat lövhə

Novlu polikarbonat lövhələr zərbə müqaviməti ilə yanaşı şəffaflığın da əhəmiyyətli olduğu yerlərdə yüksək məhsuldarlıq təmin edir. Novlu polikarbonat lövhələrin hər sahədə istifadə oluna bilməsi onları ideal seçimə çevirir.

Polikarbonat lövhənin daxilində ayırıcı divarlar arasındakı boşluqda qalan hava istilik izolyasiyası təmin edir. Bu divarları təşkil edən dolğu materialı polikarbonat lövhənin həm strukturun möhkəmliyi, həm də elastiklik baxımından yaxşı göstəricilər təmin etməsinə imkan verir.



**İstehsal yeri:** Sumqayıt/Azərbaycan
**Qalınlıq (mm):** 4-6-8-10-16-20
**Faydalı en (mm):** 2100
**Rəng seçimləri:** Şəffaf, opal və müxtəlif rəng seçimləri
**Uzunluq (mm):** Daşınma və quraşdırma şəraitindən asılı olaraq, min. 100 mm / maks.






# İstixanalar üçün NaturaLight polikarbonat lövhələri





- Şüşəyə nisbətən daha yüngüldür və xərclərinin az olması sayəsində üstünlüyə malikdir.
- Yüksək istilik müqavimətinə malikdir.
- Yüksək zərbə müqaviməti təmin edir.
- İşığa olan tələbatdan asılı olaraq şəffaf və ya opal olaraq istehsal edilə bilər.
- İnşaat tələblərindən və daşınma şəraitindən asılı olaraq, arzu edilən ölçüdə istehsal edilə bilər.
- Tağlı dam və s. tətbiq edilən zaman əyilmə imkanına malikdir.
- UV-yə qarşı yüksək müqavimətə malikdir.
- Quraşdırılması olduqca asan və praktikdir.
- Estetik görünüş təmin edir.
- Su sızmasına qarşı detonator vasitəsilə tətbiq edilir.
- Birləşmə alüminium lamellər vasitəsilə təmin edilir.
- Polikarbonat quraşdırma lamellərindən istifadə edildikdə, əlverişsiz hava şəraitində sızdırmazlığı və zərbələrə qarşı müqaviməti artırır.

# Ir-dən Qoruma

İsinmənin səbəbi günəşdən gələn infraqırmızı şüalardır. Bu şüalar şüşə və ya plastik örtük materialından keçərək istixananın daxilinə girirlər və torpağa və ya bitkilərə çatdıqları zaman istilik enerjisinə çevrilirlər. Beləliklə, torpaq və bitki isinir. Bu isinmə bitkilərdə xəstəliklərə, torpağın qurumasına, istixanada nəm balansının pozulmasına və istixana daxilindəki bitkilərin normadan artıq istilik nəticəsində ziyan görməsinə səbəb olur. NaturaLight lövhələr yüksək qoruma qabiliyyətləri sayəsində bu şüaların istixana tipli kənd təsərrüfatında yarada biləcəyi mənfi halları aradan qaldırır və onların məhsuldarlığını artırır.



## Uzadılmış böyümə mövsümü

Polikarbonat materialların faydaları, xüsusilə, uzun böyümə mövsümü yaşayan istixananın ümumi məhsudarlığına əhəmiyyətli təsirə malikdir. Bu, bütün il boyunca bitki və tərəvəzlərinizdən daha çox faydalanmağınızı təmin edir.

Uzadılmış böyümə mövsümü sərf etdiyiniz zaman və pul vəsaiti müqabilində daha çox tərəvəz və ya meyvə toplamağınıza imkan verir. Təbii şəkildə uzadılmış böyümə mövsümü daha az süni isitmə deməkdir. Həmçinin elektrikə və ən əhəmiyyətlisi isə zamana qənaət etməyinizə kömək edir.



Assan STP Panel

# Yüksək işıq keçiriciliyi

NaturaLight novlu polikarbonat lövhələri yüksək işıq keçiriciliyinə malikdir. Bu xüsusiyyəti sayəsində istixanalar üçün digər örtük materialları ilə müqayisədə, bitkilərdə daha çox inkişaf əldə edilir və istixananın məhsuldarlığı artır.





# Diffuzor effekti

İstixanalar üçün örtük materiallarında diffuzor effekti xüsusiyyətinin iki böyük üstünlüyü vardır. Diffuzor effekti işığın istixananın daxilində homogen şəkildə paylanmasını təmin edir. Birbaşa işıqlandırma zamanı bitki və yarpaqların yuxarı hissələri işığın böyük bir hissəsini qəbul edir. Bunun sayəsində isə əlavə fotosintez həyata keçirir. Lakin orta və aşağı hissədəki yapraqlar daha az işıq qəbul etdikləri üçün daha az fotosintez həyata keçirir və inkişafları məhdud olaraq qalır. Diffuzor effekti sayəsində bu vəziyyət minimallaşdırılır və istixananın məhsuldarlığı artırılır.

Həyata keçirilmiş tədqiqatlar zamanı diffuzor effekti sayəsində bibər hasilatının 5-6% arasında artdığı, xiyar hasilatında 8% artım təmin edildiyi müşahidə edilmişdir.

# SİSƏ QARŞI müntəzəm

İstixanaların damlarında mühitin rütubətli olması ilə əlaqədar artan buxar istixananın örtüyünün səthində su damcıları əmələ gətirir. Bu damcılar bitkinin ehtiyacı olan günəş işığının sınmasına və geriyə qayıtmasına səbəb olur.

İstixanalar üçün NaturaLight polikarbonat lövhələri sisə qarşı müntəzəm qabiliyyətləri sayəsində, artan su buxarının damcı əmələ gətirməsinə mane olur və istixananın örtüyünün üzərində lent qatı şəklində paylanmasını təmin edir. Sisin qarşısın alma xüsusiyyətinə malik olmayan istixana örtüklərində artan istilik buxarı və damcılar günəş işığının bitkinin üzərində obyektiv təsiri yaratması və damcıların düşməsi ilə əlaqədar olaraq yetişdirilən bitkilərdə müxtəlif xəstəliklərə və yanıqlara səbəb olur. Həmçinin yetişdirilən bitki üçün tələb olunan işığın gücündə azalma meydana gəlir və məhsuldarlığın azalmasına səbəb olur. İstixanalar üçün NaturaLight polikarbonat lövhələrinin ən mühüm xüsusiyyətlərindən biri sis əleyhinə xüsusiyyətinin uzun illər boyunca davamlı olmasıdır.



Assan STP Panel

# UV-dən ikitərəfli qoruma



İstixanalar üçün Naturalight polikarbonat lövhələri arzu edilərsə, UV-dən mühafizə edilmiş şəkildə istehsal edilə bilər. İstixana praktikasında UV-dən ikitərəfli qorumanın ən mühüm üstünlüyü, xüsusilə, yan divarlarda havalandırma üçün dam açıldığı zaman günəşdən gələn UV şüalarının yan divarların daxili hissələrinə ziyan vurmasının qarşısını almaqdır.



# Yüksək zərbəyə müqavimət

NaturaLight polikarbonat lövhələri -30, +120 C kimi olduqca yüksək temperaturlarda belə, yüksək zərbə müqavimətinə malikdir. Polikarbonat materiallar zərbəyə şüşədən 200 dəfə artıq müqavimətə malikdir. Xüsusilə, 8 mm və daha böyük novları olan polikarbonat lövhələr doluya qarşı dözümlüdür. İstixanalar üçün NaturaLight polikarbonat lövhələri istixanalar üçün digər örtüklər kimi küləyin təsiri altında deformasiyaya uğramırlar və strukturun sərtliyini mühafizə edərək onun bütövlüyünü qoruyurlar.
Yarana biləcək qismi zədələr bütövlükdə lövhəyə təsir etmir.

# Tətbiq və layihələrə dəstək xidməti

İstixana praktikasında yalnız lövhələrin təmin edilməsi deyil, istixananın quraşdırılacağı yerin iqlim şəraitinə və yetişdiriləcək bitkilərin xüsusiyyətinə uyğun olaraq, layihələrə dəstək təmin edirik. Bununla əlaqədar, konstruksiya detalları və istifadə edilən istixana örtüyü materialının qalınlığı və xüsusiyyəti kimi məsələlərdə sizlərə həll variantları təklif edirik.






/assanpanel

Kibar

Assan STP Panel